***ALİ MƏCLİSİN İCLASI***

*18 dekabr 2023-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti-altıncı iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasında protokolun mənə verdiyi məlumata əsasən 45 deputatdan 38 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
|---|---|
| İştirak edir | 38 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə azı 31 deputat parlamentin işində iştirak etməlidir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

Bugünkü iclasımızda Baş nazirin müavini hörmətli Elşad müəllim Əliyevin rəhbərlik etdiyi hökumət heyəti iştirak edir. Mən onları da zalda salamlayıram.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi.

2. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş).

3. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş).

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Bir məsələni haşiyə çıxmaq istəyirəm ki, bugünkü büdcə müzakirələri bir az vaxt apardığı üçün əvvəlcədən cari məsələlərin müzakirəsi nəzərdə tutulmamışdır. Növbəti iclaslarda nəzərdə tutulub.

Deputatlardan kim gündəliyin bu qaydada qəbul edilməsinə razıdırsa, xahiş edirəm münasibət bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 10.03 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul olunur.

Zalda olan dəyişikliklə bağlı qeyd edim ki, Ali Məclisin iclas zalında oturma qaydası əvvəlki iclaslarda deputatların soyadlarına görə idi, lakin, bugünkü iclasda deputatları dairələri üzrə əyləşdirmişik. Bununla bağlı Ali Məclisin Aparatından xahiş edəcəyəm ki, gələcəkdə zalın konfiqurasiyası düzələndə deputatlarla məsləhətləşib optimal yolu müəyyən etsin. Bunu nəzərə almağınızı xahiş edirəm.

İclasın iş qaydasını müəyyən etməliyik. Deputatlardan və müzakirələrdə iştirak edənlərdən reqlamentə mütləq riayət olunmasını xahiş edirəm. Məhdud vaxtımız olduğu üçün çalışmalıyıq ki, bu zamanda işimizi bitirək.

Təklif olunur ki, məruzə üçün 20 dəqiqə, çıxışlar üçün 10 dəqiqə, arayışlar üçün 3 dəqiqə zaman verilsin.

Başqa təklifi olan varsa xahiş edirəm bildirsin.

Yoxdur.

Gündəlikdə duran ilk məsələ "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsidir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti 12 dekabr 2023-cü il tarixdə "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihəsini Ali Məclisə təqdim etmişdir.

Layihədə işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin xərclər istiqamətində özünüməşğulluq tədbirlərinin təşkili üzrə nəzərdə tutulmuş vəsaitdə qənaət olunmuş 80 min manatın yaranmış ehtiyat vəsaitin, işsizliyə görə sığorta ödənişləri üzrə vəsaitə əlavə edilməsi təklif olunmaqdadır. Layihənin qəbul edilməsi ilə işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsində işsizliyə görə sığorta ödənişləri üzrə vəsait 90 min manatdan 170 min manatadək artırılacaq, özünüməşğulluq tədbirlərinin təşkili üzrə vəsait isə 1 milyon 480 min manatdan 1 milyon 400 min manatadək azaldılacaqdır.

Qanun layihəsi barədə məlumat verməsi üçün söz Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Ceyhun Cəlilova verilir. Buyurun, Ceyhun müəllim.

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli deputatlar, hörmətli sessiya iştirakçıları!

Gündəlikdə duran birinci məsələ ilə bağlı bildirmək istəyirəm ki, işsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin icrası zamanı bir sıra istiqamətlərdə dəyişikliyə zərurət yaranmışdır. Belə ki, cari ildən artıq məşğulluq tədbirlərinin geniş spektrli və qanunvericilikdə nəzərdə tutulmuş qaydada tam icra olunması üçün ilin əvvəlindən bu istiqamətdə silsilə tədbirlər həyata keçirilir və bir sıra islahatlarla bağlı artıq ciddi addımlar atılmışdır. Belə ki, cari il ərzində artıq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Naxçıvan Muxtar Respublikasında artıq işsizliyə görə sığorta ödənişləri, habelə əməkhaqqının birgə maliyyələşməsi proqramı çərçivəsində işsizliyin aradan qaldırılması üçün işlərə başlanılmışdır. İşsizliyə görə sığorta ödənişləri çərçivəsində ilin əvvəlindən proqnoz aparılmış, lakin muxtar respublikanın iqtisadi-siyasi həyatında baş verən dəyişikliklər bu istiqamətdə müəyyən xərclərin yenidən baxılmasına zərurət yaratmışdır. Belə ki, ümumi məlumat vermək istəyirəm ki, cari il İşsizlikdən Sığorta Fondunun ümumi gəlirləri 4 milyon 743 min 721 manat olmuş və bu il üçün xərclər də eyni məbləğdə saxlanılmışdır. İşsizliyə görə sığorta ödənişi ilin əvvəlindən 90 min manat nəzərdə tutulsa da, muxtar respublikada bir sıra təşkilatların və müəssisələrin strukturunun optimallaşması, ümumiyyətlə proseslərin optimal qurulması məqsədi ilə müəssisələrin ləğv edilməsi, bir sıra ştat vahidlərinin ixtisara düşməsi, müddəti bitən əmək müqavilələrinin nəticəsində vətəndaşlarımızın işsizlikdən sığorta ödənişi almaq hüququ formalaşmışdır və cari ilin artıq avqust ayından etibarən

muxtar respublikada ilk dəfə işsizlikdən sığorta ödənişləri ödənməyə başlanılıb. Bu istiqamətdə gedən proseslər müəyyən proqnozların dəyişilməsi ilə nəticələnmişdir. Bəzi təşkilatlar əvvəlcədən nəzərdə tutulmadığı qaydada ixtisarlara və ləğvetmə proseslərinə getmişdir ki, bunun da nəticəsində hazırda 90 min manat işsizliyə görə sığorta ödənişinin 80 min manat artırılmasına zərurət görülmüşdür. Bununla da təklif olunur ki, bu il üçün bu istiqamətdə xərcləri 170 min manata artıraq və hüququ formalaşan vətəndaşlarımıza müvafiq qanunvericiliklə nəzərdə tutulmuş dövlətin təminatının tam həyata keçirilməsini təmin edə bilək. Şübhəsiz ki, dövlətin bu istiqamətdə ən birinci vəzifəsi ondan ibarətdir ki, bu cür sığorta hadisələrinin baş verməsinin qarşısını alsın. Yəni işsizliyin aradan qaldırılması, müəyyən təşkilatların ləğv olunması, bu cür proseslərin baş verməsini öncədən qabaqlaya bilsin, əlbəttə, müvafiq dövlət proqramının icrası, həmçinin geniş islahatlar nəticəsində növbəti illərdə bu istiqamətdə ciddi önləyici tədbirlər həyata keçiriləcəkdir. Sözügedən istiqamətdə xərcin artırılması, ümumiyyətlə, fondun xərcinin artırılması hesabına başa gəlməyəcəkdir. Bizim təklifimiz ondan ibarətdir ki, özünüməşğulluq tədbirlərinin təşkili istiqamətində həmin məbləğdə vəsaiti işsizlikdən sığorta ödənişi istiqamətində yönəldək və bunun da iqtisadi əsası ondan ibarətdir ki, cari il ərzində nəzərdə tutulmuş 1 milyon 480 min manat özünüməşğulluq tədbirinin təşkili məqsədi ilə vəsait ayrılsın. Lakin, tərəfimizdən aparılmış bir sıra danışıqlar və təşəbbüslər nəticəsində cari il üçün muxtar respublikada bu istiqamətdə özünüməşğulluq tədbirlərinin təşkili Azərbaycan Respublikasının İşsizlikdən Sığorta Fondunun maliyyəsi hesabına 1000 nəfər işsiz və işaxtaran müvafiq kateqoriyadan olan şəxslərin özünüməşğulluq proqramına cəlb olunması üçün vəsaiti mərkəzdən əldə edə bilmişik. Sözügedən 1000 aktivin verilməsi, yəni 1000 fərdi qaydada təsərrüfatın yaradılmasının dəyər ekvivalenti təqribən 7 milyon manata bərabərdir. Yəni demək istəyirəm ki, 1,4-1,5 milyon manat vəsaitə yaxın özünüməşğulluq proqramına vəsait nəzərdə tutulmuşdursa, artıq bu istiqamətdə fəaliyyətimizin dəyəri 7 milyon manat civarındadır. Bu da imkan verir ki, bu istiqamətdəki xərcimizi qənaət üçün növbəti illərə saxlayaq və həmin istiqamətdə özünüməşğulluq tədbirlərinin təşkilində əldə olunmuş qənaəti, yəni 80 min manatı işsizliyə görə sığorta ödənişinə yönəldək və bu istiqamətdəki boşluğumuzu aradan qaldıraq. Hesab edirəm ki, əsaslandırma kifayət qədər əhatəlidir. Məsələyə baxılmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim.

Hörmətli nazir məsələ ilə bağlı ətraflı məlumat verdi və məsələ Sosial siyasət komitəsinin iclasında da geniş müzakirə olunub. Büdcə ilinin bitməsinə sayılı günlər qaldığı üçün Ali Məclisdə məcburuq ki, bu qanuna yenidən müraciət edək. Mən hörmətli nazirlə razıyam, amma bir məqamı da qeyd etmək lazımdır ki, bu büdcə proqnozlaşdırması ilə bağlı problemlərimizdən biridir. Ona görə çalışmaq lazımdır ki, gələcəkdə bu proqnoz göstəricilərinə diqqətlə yanaşaq. Müzakirə olunan məsələ ilə bağlı nazirə sualı olan varmı?

Müzakirəyə qoşulmaq istəyən varsa xahiş edirəm münasibətini bildirsin.

Yoxdur, ona görə də layihə barədə çıxış etmək və Sosial siyasət komitəsinin rəyini bildirmək üçün söz komitənin sədri Yeganə Məmmədovaya verilir.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Anar müəllim. Mən də bütün sessiya iştirakçılarını salamlayır, bugünkü açıqlama üçün cənab nazirə təşəkkürümü bildirirəm. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair rəyi:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinə daxil olmuş "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihəsi komitə üzvlərinə paylanılmışdır. Layihəyə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsində nəzərdə tutulmuş qaydada baxılmışdır. Qanun layihəsinə əsasən İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsində işsizliyə görə sığorta ödənişləri üzrə yaranmış kəsir vəsaitin ödənilməsi üçün özünüməşğulluq tədbirlərinin

təşkili üzrə qənaət olunmuş vəsaitdən 80 min manat azaldılaraq işsizliyə görə sığorta ödənişləri üçün nəzərdə tutulmuş vəsaitin üzərinə əlavə olunması nəzərdə tutulmuşdur. Komitənin 14 dekabr 2023-cü il tarixli iclasında hökumət nümayəndələrinin iştirakı ilə qanun layihəsi müzakirə olunmuş, qaldırılan məsələlər iclasda müzakirə edilərək mümkün tənzimləmələr nəzərə alınmışdır. Qanun layihəsi "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun hazırlanmışdır. Yuxarıda qeyd edilənləri nəzərə alaraq Ali Məclisin Sosial siyasət komitəsi qeyd edir ki, "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım.

Deputatlardan kim "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul olunmasına tərəfdardırsa xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 10.14 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |
| Nəticə: Qəbul edildi | |

Qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ də eyni formatdan ibarətdir, belə ki, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2023-cü il 12 dekabr tarixli növbəti məktubu ilə "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanun layihəsini Ali Məclisə təqdim etmişdir. Qanun layihəsi deputatlara təqdim olunub.

Bundan başqa "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsində muxtar respublikanın aidiyyəti dövlət orqanlarının nümayəndələrinin və digər rəsmi şəxslərin iştirakı ilə 14 dekabr 2023-cü il tarixdə müzakirə olunmuşdur. Aparılmış müzakirələrdən sonra qanun layihəsinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasına təqdim olunması qərara alınmışdır. Bilirsiniz ki, bu qanun yenidən hazırlandığı üçün üç oxunuşda qəbul ediləcək. Əlavə məlumat vermək istəyirəm ki, bu qanunun bir az gecikməsi və büdcə zərfinə daxil edilməməsinin səbəbi ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikasının Baş nazirinin verdiyi məlumata görə, Azərbaycan hökuməti ilə imzalanmış Memorandumun tərkib hissəsi olaraq bu qanunun həmin sənədlə mərkəzi hökumətin ixtiyarına verilməsi idi. Amma sonradan bu məsələ ortada qaldığı üçün Naxçıvan Muxtar Respublikasında müvafiq qanunun qəbul edilməsi zərurəti yaranmışdır. Qanun layihəsi barədə məruzə etməsi üçün söz yenidən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Ceyhun Cəlilova verilir.

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Təşəkkür edirəm, Anar müəllim. Gündəlikdə olan ikinci məsələ ilə bağlı bildirmək istəyirəm ki, təqdim olunmuş qanun layihəsində növbəti ildə İşsizlikdən Sığorta Fondunun gəlirləri, ümumilikdə, 6 milyon 118 min 319 manat nəzərdə tutulur. Belə ki, qeyd olunan gəlirlərin bölgüsü büdcədən maliyyələşən təşkilatlar üzrə 1 milyon 380 min manat, habelə büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə 1 milyon 380 min manat, qeyri-büdcə sektoru üzrə 850 min manat, sair gəlirlər üzrə 2 min manat və cari ilin sonuna istifadə olunmamış vəsait üzrə 2 milyon 506 min 319 manat olmaqla

proqnozlaşdırılır. Ümumilikdə, belə götürsək cari ildə fondun gəliri 4 milyon 743 min 721 manat idisə, növbəti ildə 6 milyon 118 min 319 manat həcmində proqnozlaşdırılır ki, artımın da böyük hissəsi cari ilin sonuna əldə olunmuş qənaət hesabına nəzərdə tutulur.

Xərclərə baxdıqda fondun 2024-cü il üzrə xərclərində birinci istiqamət işsizliyə görə sığorta ödənişi istiqamətindədir. Cari ildə bu istiqamət üzrə 170 min manat artıq dürüstləşmədən sonra nəzərdə tutulurdusa, növbəti ildə biz bu istiqamətə 300 min manat həcmində vəsait nəzərdə tuturuq ki, bunun da təqribən 200 min manatı cari ildə formalaşmış öhdəliklərin növbəti ildə icrası və yerdə qalan 100 min manat həcmində vəsaiti isə bir sıra təşkilatların növbəti ildə ləğvolma, müəyyən ştatların ixtisara salınması və bu tipli məsələlərdə müəyyən təşkilatların risk qiymətləndirməsi nəticəsində növbəti ilə, ümumilikdə, bu istiqamətdə xərclərin 76 faiz artımı ilə 300 min manat nəzərdə tutulub.

Digər bir istiqamət peşə hazırlığı və əlavə təhsilin təşkili istiqamətidir. Biz bunu İqtisadi siyasət komitəsində də müzakirə etmişik. Muxtar respublikada peşə hazırlığı və peşə tədrisinin konkret bölgüsü həyata keçirilməlidir. Peşə hazırlığını həyata keçirən müvafiq təşkilat, mərkəzi icra hakimiyyəti olaraq bu istiqamətdə fəaliyyətimizi genişləndirməyi növbəti ildə planlaşdırırıq və Naxçıvan Peşə Hazırlığı Mərkəzinin saxlanma xərcləri, habelə müvafiq qanunvericiliklə yeni təqdim olunmuş metodla adambaşına maliyyələşmə prinsipi ilə peşə hazırlığının təşkili nəzərdə tutulur ki, bu istiqamətdə də xərclərin 48 faiz artımı nəzərdə tutulur.

Bir digər məsələ əmək yarmarkalarının təşkili və peşəyönümünə dair məsləhət xidmətləridir ki, cari ildə 70 min manat nəzərdə tutulan xərc növbəti ildə 100 min manatadək qaldırılmış və ümumi artım 43 faiz olmuşdur ki, burda əsas məqsəd növbəti ildə daha intensiv əmək yarmarkalarının təşkil olunması, habelə müvafiq imtiyazlı şəxslərə və müvafiq kateqoriyadan olan şəxslərə peşəyönümlü məsləhət xidmətlərinin daha innovativ üsullarla həyata keçirilməsidir. Bu istiqamətdə cari ildə geniş tədbirlərimiz həyata keçirildi. Belə ki, keçirilmiş peşə festivalı və karyera forumundan muxtar respublika ictimaiyyəti geniş məlumatlıdır. Növbəti ildə bu istiqamətdə daha geniş tədbirlər planları vardır, bu da xərclərin artımı ilə nəticələnibdir.

Həmçinin, başqa bir hal haqqı ödənilən ictimai işlərin təşkili ilə bağlıdır. Haqqı ödənilən ictimai işlərlə bağlı cari ildə 460 min manat vəsait nəzərdə tutulsa da, bugünkü günə icra vəziyyəti 48 min manat səviyyəsindədir. Aşağı icra olunmasının əsas səbəbi ondan ibarətdir ki, bir az əvvəl qeyd etdiyim kimi, çalışmışıq müəyyən məşğulluq fəaliyyətini mərkəzi fond, yəni Azərbaycan Respublikası İşsizlikdən Sığorta Fondunun maliyyəsi hesabına icra edək. Haqqı ödənilən ictimai işlər çərçivəsində cari ildə Naxçıvan Muxtar Respublikasında 1000 yeni vakant yer açılıbdır və muxtar respublikanın hər bölgəsində ictimai işçilərimiz var. Həmçinin hörmətli deputatlar da bu barədə danışdılar. Bu istiqamətdə çalışmışıq xərclərimizi optimallaşdıraq. Ona görə cari ildə vəsait azalıb. Növbəti ildə biz vəsaiti 400 min manat səviyyəsində nəzərdə tuturuq ki, bu da cari ilə nəzərən 15 faizə qədər azalmadır. Onu da qeyd edim ki, 1000 nəfər işçi qüvvəsinin ümumi maliyyə dəyəri təqribən 5 milyon manata bərabərdir ki, onu mərkəzi büdcə vəsaitləri hesabına icra edirik, bu da muxtar respublikanın iqtisadiyyatına ciddi töhfə verir.

Növbəti istiqamət özünüməşğulluq tədbirlərinin təşkili ilə əlaqədardır. Daha əvvəlki məruzəmdə də bildirdiyim kimi 1000 işsiz şəxsin aktivlə təmin olunması bu il də həyata keçirilir. Eyni plan növbəti ilə də aiddir. Növbəti ildə növbəti 1000 fərdi təsərrüfatın yaradılması üçün müxtəlif profillər üzrə özünüməşğulluq proqramı çərçivəsində 1000 nəfərin proqrama cəlb olunması nəzərdə tutulur və bu da muxtar respublikanın İşsizlikdən Sığorta Fondunun xərc istiqamətində də özünü göstərir. Cari ildə 1 milyon 480 min manat vəsait nəzərdə tutsaq da, növbəti ildə həmin xərcləri 683 min manat səviyyəsinə endirmişik və bunun da əsas səbəbi bir az əvvəl qeyd etdiyim kimi bu istiqamətdə aktiv məşğulluq tədbirinin maliyyələşməsini mərkəzdən təmin edə bilməyimizdir.

Digər məsələ sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsidir. Muxtar respublikada artıq cari ilin sentyabr ayından etibarən bu istiqamətdə aktiv məşğulluq tədbiri həyata keçirilir. Artıq 11-dən artıq təşkilat bizlə əməkdaşlığa başlayıblar və işə cəlb etdikləri

əməkdaşların əməkhaqqısının yarısını fond maliyyələşdirir. Cari ildə 160 min manat nəzərdə tutulsa da, icra göstəricisi olduqca aşağıdır və növbəti ildə həmin proqnozu təqribən eyni səviyyədə saxlamışıq-150 min manat dəyərində və hesab edirəm ki, muxtar respublikada iqtisadi fəallıq artdıqca bu proqramın da genişlənməsi həyata keçiriləcəkdir. Çünki burda konkret tələblər ondan ibarətdir ki, özəl sahibkarlıq subyekti olmalıdır, minimum 1 il fəaliyyət göstərməlidir, işçilərin sayı 10 nəfərdən artıq olmalıdır. Yəni bu profildə olan təşkilatların sayı çoxaldıqca bu istiqamət üzrə sahibkarlıq subyekti ilə əməkdaşlığımız daha da genişlənəcəkdir və müvafiq istiqamətdə icra göstəricisini daha yuxarıda təmin edə biləcəyik.

Növbəti istiqamət müvafiq təşkilatın, yəni Dövlət Məşğulluq Agentliyinin, onun tabeliyində olan qurumların, habelə Naxçıvan Dost İş Mərkəzinin saxlanılma xərcləri növbəti ildə 3 milyon 758 min manat səviyyəsində nəzərdə tutulmuşdur ki, bu da cari ilə nəzərən təqribən 80 faiz artımdır. Bu artım onunla izah olunur ki, fondun ümumi xərclərinin 6 milyon manat olmasına baxmayaraq, mərkəzi maliyyələşmə hesabına Dövlət Məşğulluq Agentliyinin idarə etdiyi ümumilikdə məşğulluq tədbirlərinin dəyərini təqribən 18 milyon manatdan daha da yuxarı görürük. Çünki həm özünüməşğulluq tədbirləri çərçivəsində əlavə 7 milyon manat dəyərində fəaliyyəti, həm də haqqı ödənilən ictimai işlər çərçivəsində 5 milyon manat dəyərində fəaliyyəti idarə edirik. Bu da onunla izah olunur ki, agentliyin qeyri humanitar fəaliyyətinin dəyəri təqribən 20 milyon manatdan azdır. Bu da tələb edir ki, Dövlət Məşğulluq Agentliyinin saxlanmasına ciddi investisiya qoyulsun, kadr potensialının və maddi-texniki bazasının inkişaf etməsinə zərurət yaradır. Bu hal da özlüyündə onunla nəticələnir ki, bu istiqamətdə vəsait ayrılmasını təmin edək. Ümumilikdə məruzəm bundan ibarətdir. Xahiş edirəm, münasibət bildirəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim. Qanun layihəsi ilə əlaqədar hörmətli deputatlardan çıxış etmək istəyən və ya əlavə təklif vermək istəyən varsa xahiş edirəm, münasibətini bildirsin.

Yoxdur.

Xatırlatmaq istəyirəm ki, sizin masalarınızda çıxışa yazılmaq üçün müraciət forması var, ondan istifadə edib katiblik vasitəsi ilə çıxışa yazıla bilərsiniz. Ali Məclisdə, həmçinin deputatların keçirdiyi vətəndaş qəbullarında ən çox müraciət edilən sahələrdən biri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olduğunu qeyd etməliyəm. Çünki, bir çox müraciətlərimiz Nazirliyə yönəldilir ki, bunlarında çox hissəsi işsizlik və məşğulluq problemləri ilə bağlı olur. Buna görə də ətraflı məlumat üçün, hörmətli nazir, bir daha çox sağ olun.

Qanun layihəsi barədə çıxış etmək və Sosial siyasət komitəsinin rəyini bildirmək üçün söz komitənin sədri Yeganə xanım Məmmədovaya verilir. Buyurun.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinə dair rəyi:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinə daxil olmuş "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmışdır. Layihəyə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsində nəzərdə tutulmuş qaydada baxılmışdır. Qanun layihəsinə əsasən İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsinin gəlirləri 6 milyon 118 min 319 manat, xərcləri 6 milyon 118 min 319 manat məbləğində nəzərdə tutulmuşdur. Komitənin 14 dekabr 2023-cü il tarixli iclasında hökumət nümayəndələrinin iştirakı ilə qanun layihəsi müzakirə olunmuş, təkliflər və iradlar irəli sürülmüşdür. Qaldırılan məsələlər iclasda müzakirə edilərək mümkün tənzimləmələr nəzərə alınmışdır. Qanun layihəsi "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun hazırlanmışdır. Yuxarıda qeyd edilənləri nəzərə alaraq Ali Məclisin Sosial siyasət

komitəsi qeyd edir ki, “İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi söylənilən təklif və iradlar nəzərə alınmaqla qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

Deputatlardan kim “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm münasibət bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 10.28 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ ikinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsidir.

Qanun layihəsi 8 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 18-ci və 19-cu maddəsinə uyğun olaraq birinci oxunuşda müzakirə edilmiş, söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti verilmiş təkliflərə Ali Məclisin müvafiq komitəsi ilə birlikdə baxaraq 12 dekabr 2023-cü il tarixdə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsinin yenilənmiş variantını Ali Məclisə təqdim etmişdir. Bundan sonra layihə İqtisadi siyasət komitəsində müzakirə edilərək ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınmışdır.

Qanun layihəsi hər bir deputata paylanılmışdır və masalarınızda var, onlara baxa bilərsiniz.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məruzə etmək üçün söz İqtisadi siyasət komitəsinin sədri İsa müəllimə verilir. Buyurun İsa müəllim.

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar! Hörmətli hökumət üzvləri!

Sizi salamlayıram. Bildirirəm ki, 14 dekabr 2023-cü il tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin növbəti iclası keçirilmişdir.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədr müavini və üzvləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının şöbə müdirləri, Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri vəzifələrini icra edən, Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin və iqtisadiyyat nazirinin müavinləri iştirak edirdilər.

İclasın gündəliyinə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsinə təkliflərə və düzəlişlərə ikinci oxunuşda baxılması məsələsi verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının 8 dekabr 2023-cü il tarixdə keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin birinci oxunuşu zamanı deputatlar tərəfindən qeyd olunan irad, təklif və tövsiyələrə hökumət üzvləri öz münasibətlərini bildirərək, müzakirə edilən məsələlərə aydınlıq gətirdilər.

Hökumət üzvləri bildirdilər ki, qanun layihəsinə təkliflərə uyğun düzəlişlər edilərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinə yenidən təqdim ediləcəkdir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən qanun layihəsinin birinci oxunuşu zamanı qeyd olunan düzəlişlər nəzərə alınaraq, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin yenilənmiş forması Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edilmişdir. 14 dekabr 2023-cü il tarixdə keçirilən iclasda Ali Məclisin İqtisadi siyasət komitəsi tərəfindən düzəliş olunmuş qanun layihəsinin müzakirəsi aparılmış, komitə üzvləri tərəfindən yeni qanun layihəsinə münasibət bildirilmişdir. Əlavə olaraq iclasın gedişində Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini qeyd etdi ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsində büdcə gəlirlərinin mədaxil mənbələri üzrə səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividentlərin, büdcə xərclərinin istiqamətləri üzrə isə seçkilərin keçirilməsi üzrə xərclərin və məhkəmə qərarlarının icrası üzrə xərclərin göstərilməsi Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin dürüstləşdirilməsi zamanı nəzərə alınacaqdır.

İclasın sonunda komitə tərəfindən "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun yenidən işlənmiş layihəsinin ikinci oxunuşda müzakirəsi üçün altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclasına təqdim edilməsi səsə qoyularaq yekdilliklə qəbul edildi.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim, minnətdaram. Əlavə məlumat vermək istəyirəm ki, Ali Məclisin iradları-büdcənin tərtibatında dövlət əmlakının icarə haqlarının göstərilməməsi, torpaq icarəsi ilə bağlı maddənin birləşdirilməsi, komitə sədri tərəfindən qeyd olunan boş qalan iki seçki dairəsi üzrə Ali Məclisə keçirilə biləcək seçkilərin xərclərinin salınmaması və digər bu tip iradların bir qismi hökumət tərəfindən nəzərə alındı, yenilənmiş qanun layihəsində göndərildi, bir qisminin isə hökumət tərəfindən büdcənin dürüstləşməsi zamanı nəzərə alınacağı qeyd olundu. Xüsusilə hökumət tərəfindən, büdcənin hazırlanması və sonrakı mərhələdə Azərbaycan Respublikasının müvafiq orqanlarından baxılması və icmal büdcənin təsdiqi artıq bu prosesin dəyişmək imkanlarını bir az məhdudlaşdırdığı üçün yalnız bunu dürüstləşmə zamanı düzəltməyin mümkün olacağı bildirildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Əgər bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.34 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, Daxili Nizamnaməyə əsasən qanunun maddə-maddə müzakirəsinə başlamalıyıq, bunun üçün söz Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini hörmətli Həsən İsmayılova verilir. Buyurun.

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət üzvləri!

Bayaq qeyd olunduğu qaydada İqtisadi siyasət komitəsində də müzakirələr zamanı Ali Məclisin müəyyən iradları nəzərə alınmış qanun layihəsi yekun variantda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə və aidiyyəti üzrə Ali Məclisə təqdim edilmişdir. Hazırda mən yekun "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini müvafiq olaraq maddə-maddə nəzərinizə çatdırıram.

Maddə 1. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri 173 milyon 105 min manat, xərcləri 516 milyon 365 min manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 343 milyon 260 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 110 milyon 474 min manat, yerli gəlirləri 62 milyon 631 min manat, mərkəzləşdirilmiş xərcləri 464 milyon 440 min manat, yerli xərcləri 51 milyon 925 min manat) məbləğində təsdiq edilsin.

Maddə 2. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| | | |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 41 590 000 manat |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 8 200 000 manat |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 300 000 manat |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 1 900 000 manat |
| 2.5. | Əlavə dəyər vergisi | 51 350 000 manat |
| 2.6. | Sadələşdirilmiş vergi | 3 690 000 manat |
| 2.7. | Aksizlər | 49 208 000 manat |
| 2.8. | Yol vergisi | 5 000 000 manat |
| 2.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 5 000 000 manat |
| 2.9. | Mədən vergisi | 1 200 000 manat |
| 2.10. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 60 000 manat |
| 2.11. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 80 000 manat |
| 2.12. | Dövlət rüsumu | 6 387 000 manat |
| 2.13. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 4 030 000 manat |
| 2.14. | Sair daxilolmalar | 110 000 manat |

**Sədrlik edən.** Üzr istəyirəm, Həsən müəllim, biz maddə-maddə müzakirə etdiyimiz üçün deputat həmkarlarımdan soruşmaq istəyirəm ki, oxunan iki maddə ilə bağlı hər hansısa irad və ya təkliflə çıxış etmək istəyən varsa münasibətini bildirsin. Müzakirə bunu tələb edir, ona görə də prosedurlara əməl etməliyik. Fikir yoxdur. Elə isə qəbul edilmiş sayılır. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 10.37 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Maddə 3. Müəyyən edilsin ki, “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu vəsaiti dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu | 5 870 000 manat |
| 3.1.1. | Yol vergisi | 5 000 000 manat |
| 3.1.2. | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 150 000 manat |
| 3.1.3. | Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 720 000 manat |

**Sədrlik edən.** Çox sağ olun. Maddə ilə bağlı fikri olan varsa xahiş edirəm münasibətini bildirsin. Yoxdur. Qəbul olunmuş hesab olunur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 10.38 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Maddə 4. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| | | |
|---|---|---|
| 4.1. | Ümumi dövlət xidmətləri | 74 900 374 manat |
| 4.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 71 756 868 manat |
| 4.1.2. | elm | 3 143 506 manat |
| 4.2. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 88 675 725 manat |
| 4.2.1. | məhkəmə hakimiyyəti | 10 311 105 manat |
| 4.2.2. | hüquq mühafizə | 71 490 518 manat |
| 4.2.3. | prokurorluq | 6 720 490 manat |
| 4.2.4. | hüquqi yardım | 153 612 manat |
| 4.3. | Təhsil | 160 831 186 manat |
| 4.3.1. | məktəbəqədər təhsil | 10 193 650 manat |
| 4.3.2. | ümumi təhsil | 115 626 359 manat |
| 4.3.3. | peşə təhsili | 2 564 592 manat |
| 4.3.4. | orta ixtisas təhsili | 3 492 270 manat |
| 4.3.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 28 954 315 manat |
| 4.4. | Səhiyyə | 11 937 343 manat |
| 4.4.1. | xəstəxanalar | 6 232 949 manat |
| 4.4.2. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 5 704 394 manat |
| 4.5. | Sosial müdafiə və sosial təminat | 9 136 226 manat |
| 4.5.1. | sosial müdafiə | 416 866 manat |
| 4.5.2. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 8 719 360 manat |

| | | |
|---|---|---|
| 4.6. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 25 800 855 manat |
| 4.6.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 17 891 230 manat |
| 4.6.2. | televiziya, radio və nəşriyyat | 5 318 231 manat |
| 4.6.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 618 195 manat |
| 4.6.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 402 977 manat |
| 4.6.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər | 1 570 222 manat |
| 4.7. | Mənzil və kommunal təsərrüfatı | 18 632 520 manat |
| 4.7.1. | mənzil təsərrüfatı | 805 211 manat |
| 4.7.2. | kommunal təsərrüfatı | 14 266 343 manat |
| 4.7.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 560 966 manat |
| 4.8. | Kənd təsərrüfatı | 47 130 951 manat |
| 4.8.1. | kənd təsərrüfatı tədbirləri | 11 989 753 manat |
| 4.8.2. | baytarlıq | 3 267 042 manat |
| 4.8.3. | meliorasiya | 31 874 156 manat |
| 4.9. | Ətraf mühitin mühafizəsi | 15 536 745 manat |
| 4.9.1. | bioloji zənginliyin qorunması | 599 130 manat |
| 4.9.2. | torpaq və yerquruluşu | 820 000 manat |
| 4.9.3. | hidrometeorologiya tədbirləri | 1 657 102 manat |
| 4.9.4. | meşə təsərrüfatı | 752 850 manat |
| 4.9.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 11 262 163 manat |
| 4.9.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 445 500 manat |
| 4.10. | İqtisadi fəaliyyət | 54 075 586 manat |
| 4.10.1. | nəqliyyat və rabitə | 17 115 763 manat |
| 4.10.2. | iqtisadi və kommersiya fəaliyyəti | 1 209 823 manat |
| 4.10.3. | tikinti və şəhərsalma | 22 000 000 manat |
| 4.10.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000 manat |
| 4.10.4. | geodeziya və faydalı qazıntılar | 500 000 manat |
| 4.10.5. | yanacaq və enerji kompleksi | 10 000 000 manat |
| 4.10.6. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 3 250 000 manat |
| 4.11. | Əsas bölmələrə aid edilməyən xərclər | 9 707 489 manat |
| 4.11.1. | ehtiyat fondları | 2 000 000 manat |
| 4.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 2 000 000 manat |
| 4.11.2. | məqsədli büdcə fondları | 5 870 000 manat |
| 4.11.2.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 5 870 000 manat |
| 4.11.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 837 489 manat |
| 4.11.3.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000 manat |
| 4.11.3.2. | digər tədbirlər üzrə xərclər | 837 489 manat |

**Sədrlik edən.** Deputat yoldaşlarımdan maddə ilə bağlı fikri olan, çıxış etmək istəyən yaxud da münasibət bildirmək istəyən varmı? Aidə xanımın fikri var, buyurun Aidə xanım.

**A.Cəlilzadə,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədr müavini.*

Çox sağ olun, Anar müəllim. Həsən müəllimə sualım sadəcə bir aydınlaşdırma ilə bağlı idi. 4.3.5-ci maddədə təhsil sahəsində digər müəssisə və tədbirlər adı altında qeyd olunan digər kriteriyasına bilmək istəyirdim ki, ali təhsil müəssisələrinə də vəsait ayrılması nəzərdə tutulurmu? Çünki bilirik ali təhsil müəssisələri əslində təsərrüfathesablıdır, amma bəzi dövlət tədbirləri, ortaq keçirilən dövlət tədbirləri və s. mövzularda əlavə vəsait tələb olunduğu üçün bu maddə altında ali təhsil müəssisələrinə də vəsait ayrılması nəzərdə tutulurmu? Sağ olun.

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Sualınıza görə çox sağ olun. Burada 4.3.5 olan hissədə sualınız təhsil sahəsində digər müəssisə və tədbirlər 28 milyon 954 min 315 manatdır, xeyr bu hissədə ali təhsil müəssisələri ilə bağlı xərclər əhatə olunmayıb, Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, Azərbaycan Respublikasında ali təhsil müəssisələrinin saxlanılması həm ödənilən ödənişli tələbə təhsilhaqları, eyni zamanda dövlət sifarişi əsasında tələbələrin təhsilhaqları hesabına formalaşır və təsərrüfathesablı maliyyələşdirilir. Həmin o xərclərdə səhiyyə sahəsində proqramlar, təhsil sahəsinin informasiyalaşdırılması və digər xərclər var. Zərurət olsa detallı onu da izah edə bilərəm ki, bizim bu xərclərimiz hansı xərclərdir. Amma sualınızla bağlı bildirmək istəyirəm ki, xeyr, orada ali təhsil müəssisələri ilə bağlı xərclər əhatə olunmayıb.

**Sədrlik edən.** Həsən müəllim, Aidə xanımın sualı bir az fərqlidir, belə ki, birgə keçirilən tədbirlərdə, məsələn Qərbi Azərbaycana qayıdış kimi, birgə keçirilən tədbirlərdə kifayət qədər vəsait xərclənir. Buna görə soruşur ki, o xərclər bu maddədə nəzərdə tutulurmu?

**A.Cəlilzadə,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədr müavini.*

Bəli, saxlanma xərcləri deyil, sadəcə olaraq planlaşdırılmamış və yaxud sonradan nəzərdə tutulan, iş planına salınmış dövlət təşkilatları ilə ortaq keçirilən tədbirlərdə vəsait tələb olunur.

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Qeyd etdiyim kimi, əslində onu mərkəzi xərc hesab etmək olmaz. Universitetlərin büdcələri ali təhsil müəssisələrinin maliyyələşdirilməsi mənbələrində bir ödənişli tələbələrin ödədiyi təhsilhaqları, eyni zamanda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən dövlət sifarişi əsasında tələbələrin təhsilhaqqısından formalaşır. Məlumat üçün bildirirəm ki, Naxçıvan Dövlət Universitetinin və digər ali təhsil müəssisələrinin hesabında kifayət qədər məbləğlər var, hansı ki, o məbləğlər hesabına bu tədbirlərin maliyyələşdirilməsi mümkündür. Burada birgə tədbirlərin keçirilməsindən söhbət getmir. Anar müəllim, icazə versəniz həmin o, 3.5-ci hansı ki, təhsil sahəsinə aid olan digər müəssisə və tədbirlərdə maliyyələşdirilən xərclərimizi izah edə bilərəm.

**Sədrlik edən.** Buyurun.

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin təhsil sahəsinə aid olan hissəsi Maliyyə Nazirliyinin Maliyyə Tədris Mərkəzinin xərci, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin məktəbdənkənar təhsil müəssisələri, mərkəzləşdirilmiş mühasibatlıqlar, ümumtəhsil metodiki kabinələr, təhsilin dövlət proqramları, dövlət ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarının açılması, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin musiqi məktəblərinin xərcləri və təhsil sahəsində dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri, Texniki-Peşə Sürücülük Mərkəzi və Naxçıvan Qızlar Liseyinin büdcədənkənar xərcləri ilə əhatə olunur. Həmin 28 milyon 954 min manatın 188 min 408 manatı Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Maliyyə Tədris Mərkəzinin maliyyələşdirilməsi üçün, 13 milyon 371 min 505 manatı Təhsil Nazirliyinin məktəbdənkənar təhsil müəssisələri, mərkəzləşdirilmiş mühasibatlıqlar, təhsil metodiki kabinələr, təhsilin dövlət proqramları, dövlət ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarının açılması üçün və 15 milyon 394 min 402 manatı Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin musiqi məktəbləri üçün qruplaşdırılıb. Sualınıza aidiyyəti üzrə bir daha qeyd edim ki, burada ali təhsil müəssisələri ilə birgə tədbirlərin keçirilməsi üçün vəsait nəzərdə tutulmur. Ümumiyyətlə, həmin təhsil bölməsinin xərclərində dediyiniz məqsədlər üçün vəsaitlər nəzərdə tutulmur. Əlavə olaraq deyim, Naxçıvan Dövlət Universitetinin və bizim digər ali təhsil müəssisələrinin o qeyd etdiyim mənbələr hesabına, tələbələr tərəfindən ödənilən təhsilhaqları, eyni zamanda dövlət sifarişi ilə təhsil alan tələbələrin təhsilhaqları ilə bağlı toplanan kifayət qədər geniş maliyyə imkanları var, həmin məqsədlər üçün də istifadəsi mümkündür.

**Sədrlik edən.** Aydınlıq gətirdiyinizə görə çox sağ olun, Həsən müəllim.

| **Səsvermənin nəticələri** | (saat 10.44 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Maddə 5. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində təsdiq edilsin.

**Sədrlik edən.** Maddə 5-lə bağlı kiminsə iradı və ya sualı yoxdur? Yoxdur. Zəhmət olmasa Maddə 6-nı oxuyun.

| **Səsvermənin nəticələri** | (saat 10.45 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Maddə 6. Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 62 milyon 781 min manat, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 min manat, yerli xərclər 51 milyon 925 min manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 19 milyon 377 min manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 8 milyon 671 min manat məbləğində təsdiq edilsin. Burda cədvəldə ayrı-ayrılıqda hər bir şəhər və rayon üzrə sadalanıb, mən istəyirəm onları da sizin nəzərinizə çatdırım:

(manatla)

| **Sıra №-si** | **Şəhər və rayonların adı** | **Gəlirlər** | | **Yerli xərclər** | **Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləş-dirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi** | **Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi** |
|---|---|---|---|---|---|---|
| | | **Cəmi** | **o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ** | | | |
| | **Şəhər** | | | | | |
| 1. | Naxçıvan | 36 852 000 | 40 000 | 18 044 000 | 18 768 000 | |
| | **Rayonlar** | | | | | |
| 2. | Şərur | 7 699 000 | 20 000 | 7 679 000 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3. | Babək | 5 904 000 | 40 000 | 5 255 000 | 609 000 | |
| 4. | Ordubad | 3 000 000 | 10 000 | 5 519 000 | | 2 529 000 |
| 5. | Culfa | 3 100 000 | 20 000 | 5 537 000 | | 2 457 000 |
| 6. | Şahbuz | 2 600 000 | 12 000 | 4 468 000 | | 1 880 000 |
| 7. | Kəngərli | 3 021 000 | 7 000 | 3 014 000 | | |
| 8. | Sədərək | 605 000 | 1 000 | 2 409 000 | | 1 805 000 |
| | **Cəmi:** | **62 781 000** | **150 000** | **51 925 000** | **19 377 000** | **8 671 000** |

**Sədrlik edən.** Çox sağ olun. Deputatlardan kiminsə sualı, fikri varsa xahiş edirəm münasibətini bildirsin. Yoxdur. Davam edin, Həsən müəllim.

| **Səsvermənin nəticələri** | (saat 10.54 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |
| Nəticə: Qəbul edildi | |

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Maddə 7. Dövlət büdcəsinin icrası istiqamətində “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin daxilolmalarının vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

Maddə 8. Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Sədrlik edən.** Son iki maddə texniki maddələr idi. Belə hesab edirəm ki, bunula bağlı elə bir iradınız olmaz.

| **Səsvermənin nəticələri** | (saat 10.55 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Deputatlardan kim bu müzakirə olunan məsələ ilə bağlı münasibət bildirmək istəyir? Mən ümumi soruşuram. Bir daha xatırladım ki, hökumət iki məqamı nəzərə alır. Burada əsas iradlardan biri o idi ki, dövlət əmlakının icarəyə verilməsindən daxil olmalarla dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsi maddəsi birgə verilmişdi, hökumət iradı nəzərə alaraq ayırıb bunu və sonrakı iradları da büdcənin dürüstləşməsi zamanı nəzərə almağa söz verib.

Deputatlar əgər etiraz etmirlərsə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.4-cü və 20.5-ci maddələrinə əsasən müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilir və qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır. Burada müzakirələrdən də məlum oldu ki, elə bir ziddiyyət müəyyənləşdirilməmişdir, yəni texniki olaraq biz bunu yenidən komitəyə qaytarırıq, redaktə varsa bunları da nəzərə alaraq üçüncü oxunuşa verə bilərik. Bu cür qərarın qəbul edilməsinə kim tərəfdardırsa xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.56 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Müzakirə olunan məsələlər bitdiyinə görə mən iclası bağlı elan etməzdən əvvəl, iclasımızın əvvəlində qeyd etmişdim ki, hökuməti hörmətli Elşad müəllim təmsil edir, əgər Elşad müəllim, bir fikriniz varsa qeyd edə bilərsiniz.

**E.Əliyev,** *Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini.*

Yoxdur.

**Sədrlik edən.** Hər hansısa bir fikir yoxdursa, iclası bağlı elan edirəm.

Sağ olun!